


# Milli dirçəlişdən şanlı Zəfərə

## *Azərbaycan xalqı azadlığını qan tökərək qazandı və onu qətiyyətlə, mübarizliklə qoruyur*

**Vaxtilə bir bayraq altına yığdığı xalqların etiraz səsləri keçmiş sovet imperiyasının paytaxtı Moskva şəhərində kilsə zəngləri kimi çöküş və matəm marşı çalırdı.**

Bir çox xalqların, o cümlədən azərbaycanlıların qanı hopmuş Kreml sarayının sütunları çat vermişdi. Sovetlər Birliyinin ilk prezidenti, əlləri xalqımızın qanına bulaşmış ermənipərəst M.Qorbaçov ABŞ və bəzi Qərb ölkələri ilə separat danışıqlara gedərək yenidənqurma, aşkarlıq adı ilə sovet dövlətini dağıtdı, həyat yoldaşı Raisa isə erməni lobbisindən brilyant və almaz dəstləri alaraq azərbaycanlıları dədə-baba torpaqları olan Basarkeçərdən, Amasiyadan, Göyçədən və digər bölgələrdən deportasiyaya məruz qoydu. Həmin hakimiyyətin liderlərindən biri, xaçpərəstlər arasında yeganə müsəlman olan xalqımızın dahi oğlu Heydər Əliyevin təfəkkürü, ağlı, dərrakəsi, bacarığı, işgüzarlığı qarşısında aciz qalan Qorbaçov onu tutduğu yüksək vəzifədən istefa verməyə məcbur etdi. Bununla da uzun illər ərzində marığa yatan və fürsət gözləyən ermənilərə işarə verildi ki, azərbaycanlılara qarşı təxribatlara başlasınlar. Məhz Qorbaçovun anti-Azərbaycan siyasəti nəticəsində 1988-ci ildə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlı öz ata-baba yurdundan kütləvi surətdə didərgin salındı. Ötən əsrin sonlarında Sovetlər Birliyinin iqtisadi, siyasi, mənəvi və ideoloji dayaqları sarsıldıqca imperiyanın Azərbaycan xalqına qarşı yürütdüyü ayrı-seçkilik siyasəti kəskin xarakter aldı. Həmin dövrdə SSRİ-nin sonuncu prezidenti Mixail Qorbaçov hakimiyyətinin dəstəyi ilə ermənilər 1988-ci il fevralın əvvəllərində keçmiş Dağlıq Qarabağda Azərbaycana qarşı ərazi iddialarına başladılar, separatizmi gücləndirdilər. Daşnak ideologiyası ilə silahlanmış ermənilərin torpaqlarımızda törətdikləri vəhşiliklər, soydaşlarımızın amansızlıqla qətlə yetirilməsi, azərbaycanlıların Ermənistandan kütləvi surətdə deportasiya edilməsi, Topxana meşəsinin qırılması, Ağdamda iki gəncin qətli Bakıda milli hissləri alovlandırdı. 1988-ci ildən başlayaraq Azərbaycanda milli istiqlal hərəkatı geniş vüsət aldı. Milyonlarla insanın toplaşdığı Azadlıq meydanında səslənən tələblərin mahiyyəti getdikcə dəyişərək müstəqil dövlət qurmaq ideyası milli düşüncəyə hakim kəsildi. Məhz o zamankı SSRİ rəhbərliyinin və yerli hakimiyyət orqanlarının yarıtmaz siyasəti nəticəsində meydana çıxan bu problemlərin qarşısını almaq missiyasını xalq öz üzərinə götürdü. Bakının mərkəzində Azadlıq meydanına axışan xalq kütlələri 70 il Azərbaycanı müstəmləkə əsarətində saxlayan Sovet imperiyasına qarşı ilk etiraz səsini qaldırdı. 1988-ci ilin noyabr-dekabr aylarında Bakıda 18 gün fasiləsiz davam edən etiraz mitinqi kütləvi xarakter aldı.

Bakıda başlanan antisovet mitinqləri xalq hərəkatı respublikamızın bütün şəhər və rayonlarını bürüdü. Mitinqçilər meydanı tərk etmir, daha da sıxlaşırdılar, bu birlik təlatümlü dənizin şahə qalxan dalğalarına bənzəyirdi, xalq bir yumruq kimi birləşərək azadlıq deyə hayqırırdı. Təbii ki, milli ruhlu ziyalılar, yazıçılar, alimlər kənarda qala bilməzdilər, onlar tribunaya çıxaraq etirazçıların tələblərini müdafiə edirdilər. Bakı şəhərindəki ali məktəblərin tələbələri də etirazçılara qoşulmuşdular. Beləliklə, 17 noyabr 1988-ci ildə Azadlıq meydanında (o vaxt Lenin meydanı adlanırdı) Azərbaycan xalqının etiraz mitinqləri başladı. Bu, Azərbaycan xalqının milli-azadlıq hərəkatı idi. Azadlıq meydanında ilk dəfə Azərbaycanın milli bayrağı qaldırıldı və Sovet İttifaqından ayrılmaq məsələsi gündəliyə gətirildi. 18 gün davam edən xalqın hərəkatı tezliklə bütün SSRİ-ni bürüdü. 1990-cı ilin yanvarında Bakıya qoşun yeridən Qorbaçovun əmri ilə dinc nümayişçilər güllələnən edildi, xalqın azadlıq uğrunda şəhid olan övladlarını dəfn etmək üçün Şəhidlər Xiyabanı yaradıldı. Nəhayət, 1991-ci ilin dekabrında Sovet İttifaqı dağıldı. Qeyd edək ki, 1988-ci ilin noyabrında başlayan etiraz dalğaları dekabrın 4-dək davam etdi və bu mitinqlər SSRİ-də ən iri-miqyaslı kütləvi etiraz aksiyası idi.

Bunları görən rəsmi Moskva Azərbaycanda ilk dəfə fövqəladə vəziyyət elan edərək, SSRİ-nin müxtəlif ərazilərindən dislokasiya edilmiş Daxili Qoşun Qüvvələrini meydanda yerləşdirməklə dekabrın 3-dən 4-nə keçən gecə mitinqi dağıtdı. Lakin o zaman xalq hərəkatı parçalansa da millət öz arzusuna çatdı. Noyabrın 17-dən başlayan Meydan hərəkatı azad Azərbaycanın təməlini qoydu. Tarixən keşməkeşli yol keçən, əsrlərin sınağından uğurla



çıxan Azərbaycan xalqı müstəqil dövlətə sahib olmaq naminə əzmkarlıqla mübarizə apardı.

Azərbaycanın müstəqilliyinin bərpasında tarixi rol oynamış xalqın istiqlal mücadiləsinin əsas mərhələlərindən biri də məhz 17 Noyabr - Milli Dirçəliş Günüdür. Xalqımız bir yumruq kimi sıx birləşərək bütün dünyaya sübut etdi ki, azad olmağa layiqdir. Tariximizə Milli Dirçəliş Günü kimi düşən 17 noyabrın mənəvi əsasları isə əslində ötən əsrin 60-cı illərinin sonlarından - ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdən başlamışdır. Xalqa sağlam ruh və özünüdərk gətirən Heydər Əliyev Sovet ideologiyasının sərt qadağalarına baxmayaraq, milli-mənəvi dəyərlərə, elmin, mədəniyyətin dirçəlişinə xüsusi önəm verirdi. Azərbaycan əsl intibah və dirçəliş dövrünə qədəm qoydu. Məhz Heydər Əliyevin təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrində təhsil alan milli ruhlu alimlər və ziyalılar ordusu yetişdi. Ulu Öndərin yaratdığı mənəvi, psixoloji, iqtisadi baza təxminən 20 il sonra Sovetlər Birliyi dağıldıqdan sonra xalqın dayağı oldu. 1988-ci ildə xalq hərəkatı alovlananda Azərbaycana rəhbərlik edən siyasi qüvvələr mövcud vəziyyəti qiymətləndirə bilmədi. Xalqın maraqlarından daha çox, imperiyanın maraqlarını düşünən bu siyasətbazların siyasi savadsızlığı üzündən 1990-cı ilin 20 Yanvar faciəsi baş verdi. Bir-birini əvəzləyən o zamankı hakimiyyət xalqın dirçəliş və oyanışını mütərəqqi səmtə yönəltmək iqtidarında deyildi. O ağır məqamlarda ulu öndər Heydər Əliyev xalqın istiqlal ruhunu sönməyə qoymadı.

Ümummilli lider Heydər Əliyev 1990-cı il iyulun 22-də Naxçıvanın "Azadlıq" meydanında 80 mindən çox insanın iştirakı ilə keçirilən izdihamlı mitinqdə çıxış etdi. Xalqın nümayəndələri ilə görüşlər keçirdi və xalqı azadlıq, müstəqillik uğrunda sonacan mübariz olmağa çağırdı. Ulu öndər Heydər Əliyev Azərbaycan SSR və Naxçıvan MSSR Ali sovetlərinə deputat seçildi. Müdrik, uzaqgörən siyasəti ilə xalqın azadlıq mübarizəsini istiqamətləndirdi. 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin onun sədrliyi ilə keçirilən sessiyası Muxtar Respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü ilə məsələ qaldırılması haqqında tarixi qərar qəbul etdi. Bundan bir qədər sonra Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 18-də keçirilən iclasında "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul etdi. Həmin ilin mart ayında Azərbaycan SSRİ Ali Sovetinin iclasında çıxış edən ulu öndər Heydər Əliyev gələcək mübarizə və inkişaf yolunu müdrikliklə bəyan edərək dedi: "Azərbaycan xalqı birləşməli, öz müqəddəs torpaqlarını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır".

Bu gün xalqımız Milli Dirçəliş Gününü 44 günlük Vətən müharibəsində Azərbaycan ordusunun bölmələrinin Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yağı düşmən üzərində möhtəşəm Zəfərilə qeyd edir. Rəşadətli Azərbaycan Ordusu dövlətimizin ərazi bütövlüyünü təmin edərək xalqımızın milli qürurunu özünə qaytardı. Ermənilərin uydurduqları nağılları, rəvayətləri, mifləri dağıdan əsgərimizin başı üzərində gəzdirdiyi Azərbaycan bayrağı indi Xankəndidə qürurla dalğalanır. Əlbəttə, bu üçrəngli, ay-ulduzlu bayraq təkcə Ermənistana yox, həm də Qarabağı münaqişə ocağına, müharibə meydanına çevirən havadarlarına verilən cavabın təntənəsidir! Millət, Dövlət və Ordu olaraq savaşaraq haqqımızı, şərəfimizi ucaltdıq, bizi kəsən qılıncı məhv etdik, ədaləti "Dəmir Yumruq"la qazandıq. 1988-ci ildən yurd həsrəti yaşayan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Öz sözünün sahibi olan dövlət başçısının sözlərindəki inam hər kəlmədə aydın hiss olunur. Gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız qədim yurd yerlərinə qayıdacaqlar, tarixi ədalət bərpa ediləcək və əzəli torpaqlarımızda üçrəngli, ay-ulduzlu Zəfər bayrağımız dalğalanacaq!

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2024.- 17 noyabr (№ 253).- S.8.